Olimpiya dünyası

www.olimpiyadunyası.az

Azərbaycan Milli Olimpiya Komitəsinin qəzeti

№ 3 (1463), 26 yanvar - 1 fevral 2021-ci il

Qəzet 2001-ci ildən çıxır.



# Mehriban Əliyeva yenidən Azərbaycan Gimnastika Federasiyasının prezidenti seçilib

Azərbaycanın birinci xanımı Mehriban Əliyeva yenidən Azərbaycan Gimnastika Federasiyasının prezidenti seçilib.

Azərbaycan Gimnastika Federasiyasının yanvarın 25-də təşkil olunan hesabat-seçki xarakterli 11-ci ümumi yığıncağında keçirilən səsvermənin yekunlarına əsasən, Mehriban Əliyeva növbəti beş il müddətində federasiyaya rəhbərlik edəcək.

Səsvermə nəticəsində Altay Həsənov federasiyanın vitse-prezidenti seçilib. Həmçinin Milli Məclisin deputatı Rauf Əliyev, Heydər Əliyev adına İdman-Konsert Kompleksinin direktoru Rafiq Behbudov və bədii gimnastika üzrə Azərbaycan yığma komandasının baş məşqçisi Mariana Vasilyeva federasiyanın İcra Komitəsinin üzvü seçiliblər.

# III Avropa Oyunlarının proqramında idman növlərinin sayı artırılır

Avropa Olimpiya Komitələri (AOK) 2023-cü ilin yayında keçiriləcək III Avropa Oyunlarının proqramını genişləndirməyə davam edir. İyunun 9-dan 25-dək Polşanın Krakov və Malopolye şəhərlərində təşkil olunacaq yarışların proqramına badminton da daxil edilib. Badminton son vaxtlar Oyunların proqramına daxil edilən sayca altıncı idman növüdür. Belə ki, dekabrda müasir beşnövçülük, taekvondo, avarçəkmə slalomu, karate və çimərlik həndbolunun da yarışların proqramına salınacağı açıqlanıb. Badminton bundan əvvəlki Oyunlarda - Bakı-2015 və Minsk-2019-da da yarışların proqramda yer alıb.

Beləliklə, III Avropa Oyunlarının proqramında kamandan oxatma, sinxron üzgüçülük, badminton, basketbol - 3x3, çimərlik həndbolu, breyk-dans, kanoe (kayak və kanoe, kanoe slalom), velosiped idmanı (BMX, şose), avarçəkmə slalomu, qılıncoynatma, gimnastika, cüdo, taekvondo, karate, müasir beşnövçülük, dağ qaçışı, reqbi-7, atıcılıq, tramplindən tullanma (yay), idman dırmanması, stolüstü tennis, triatlon, voleybol, çimərlik voleybolu, ağırlıqqaldırma yer alıb.

Xatırladaq ki, tarixdə ilk Avropa Oyunları 2015-ci il iyunun 12-28-də Bakıda təşkil olunub.



## Nurlana Məmmədzadə yenidən Azərbaycan Gimnastika Federasiyasının baş katibi vəzifəsinə təyin olunub

Bu barədə AGF-in İcra Komitəsinin sayca 37-ci iclasında qərar qəbul olunub.

Federasiyanın İntizam Komitəsinin üzvləri Nazim Rəcəbov və Aytac Qasımova müvafiq olaraq həmin komissiyanın sədri və üzvlüyünə yenidən təyinat alıblar. Namiq Əliyevin isə ilk dəfə olaraq həmin komissiyanın üzvü olması qərara alınıb.

Elşad Nərimanov AGF-in Veteranlar Şurasının sədri seçilib. Uzun illər həmin şuranın sədri olmuş Arif Quliyev isə fəxri prezident seçilib.

## Qanı ilə tarix yazan qəhrəmanların xatirələri qəlbimizdən heç vaxt silinməyəcək

Səh. 3

## Vətən müharibəsinin qazisi: "Ölümü bir neçə saniyə qabaqlayıb, sağ qaldım"

Səh. 4

# "Böyük dəbilqə" turnirində 16 cüdoçumuz yarışacaq



Fevralın 18-20-də Təl-Əvivdə cüdo üzrə "Böyük dəbilqə" turniri keçiriləcək. Yarış üçün artıq 38 ölkədən 178 (102 kişi, 76 qadın) cüdoçu iştirakını təsdiqləyib. 3 gün davam edəcək turnirdə ölkəmizi 16 cüdoçu (12 kişi, 4 qadın) təmsil edəcək. Belə ki, kişilər arasında Kəramət Hüseynov, Davud Məmmədsoy (hər ikisi 60 kq), Orxan Səfərov, Nicat Şıxəlizadə (hər ikisi 66 kq), Rüstəm Orucov, Telman Vəliyev (hər ikisi 73 kq), Zelim Tckayev, Hidayət Heydərov (hər ikisi 81 kq), Məmmədəli Mehdiyev (90 kq), Elmar Qasımov, Zelim Kotsoyev (hər ikisi 100 kq) və Uşangi Kokauri (+100 kq) mübarizə aparacaqlar. Qadınların yarışında isə Aişə Qurbanlı, Leyla Əliyeva (hər ikisi 48 kq), Gültac Məmmədəliyeva (52 kq) və İrina Kindzerska (+78 kq) güclərini sınayacaqlar.

Xatırladaq ki, cüdoçularımız yanvarın 11-13-də Qətərin paytaxtı Dohada cüdo üzrə "World Masters" turnirində iştirak ediblər. Tatami ustalarımız Zelim Kotsoyev (-100 kq) və İrina Kindzerskanın (+78 kq) sayəsində nüfuzlu turniri 2 gümüş medalla başa vurublar.

# Olimpizm

## Tomas Bax: "Əsas məsələ Olimpiya Oyunlarının təhlükəsiz şəraitdə keçirilməsidir"

Beynəlxalq Olimpiya Komitəsi (BOK) Tokioda keçiriləcək Olimpiya Oyunlarının koronavirus pandemiyası fonunda təhlükəsiz təşkil olunmasına imkan verən bir neçə layihə hazırlayır.

Bu barədə qurumun prezidenti Tomas Bax məlumat verib.



O bildirib ki, bu ilin iyul-avqust aylarında yarana biləcək vəziyyətlə bağlı bütün hazırlıqlar görülməlidir və yeri gələndə bunlardan istifadə ediləcək: "Miqrasiya, karantin qaydaları və Atletlər Kəndində sosial məsafənin qorunmasına qədər bütün mühüm amillər nəzərə alınacaq. Sürətli testlərin aparılması, peyvəndləmə, tamaşaçılar, yarış iştirakçılarının sayı ilə bağlı çoxlu məsələlərlə bağlı suallar var. Hər kəs əmin ola bilər ki, əsas məsələ Olimpiya Oyunlarının təhlükəsiz şəraitdə keçirilməsidir".

## Yaponiyanın Tokio-2020-ni ləğv etməsi təkzib edildi

Bir müddət əvvəl Yaponiya hakimiyyəti koronavirus pandemiyası səbəbi ilə Tokioda keçirilməsi planlaşdırılan Olimpiya Oyunlarının ləğv olunmasının zəruri olduğu barədə məlumat yayılmışdı. Məlumata görə, hazırda əsas fikir Oyunların Tokioda uyğun olan 2032-ci ildə keçirilməsini təmin etməyə yönəldilmişdi.

Lakin Yaponiya hökumətinin baş katibinin müavini Manabu Sakai Tokioda Olimpiya Oyunlarının ləğvi ilə bağlı gizli qərar qəbul edildiyi barədə məlumatı təkzib edib.

"Mən qəti sürətdə bu məlumatı təkzib edirəm. Belə ki, bu xəbər həqiqətləri əks etdirmir", - deyə M.Sakai bildirib.

## Tokio-2020-də iştirak edəcək bütün idmançılara peyvənd vurula bilər

Beynəlxalq Olimpiya Komitəsi (BOK) və Ümumdünya Səhiyyə Təşkilatı (ÜST) Yaponiyanın paytaxtı Tokiodakı olimpiadada iştirak edəcək bütün idmançıların koronavirusa qarşı peyvənd olunmasını nəzərdən keçirir. BOK əhalinin peyvəndlənməsinə başlanmadığı ölkələrdə idmançılar üçün bu prosesi sürətləndirmək niyyətindədir. Əsas və həssas əhalidən əvvəl idmançıların aşılanması isə ÜST üçün ciddi suallar doğurur.




# *Milli Paralimpiya Komitəsində Vətən müharibəsi qaziləri ilə görüş keçirilib*

Azərbaycan Milli Paralimpiya Komitəsinin (AMPK) və "Motivator Azerbaijan"ın birgə təşkilatçılığı ilə yeni layihəyə start verilib. Layihə çərçivəsində Vətən müharibəsinin qaziləri ilə ilk görüş keçirilib.

AMPK-dan "Olimpiya dünyası" qəzetinə verilən məlumata görə, layihənin məqsədi Vətən müharibəsi qazilərinin idmana cəlb edilməsi, gənclərimizin qarşılarına qoyduqları məqsədə doğru irəliləməsində, sağlamlıq problemlərinə və əlilliyə baxmayaraq ruhdan düşməmələri üçün dəstək olmaqdır.

Görüşdə komitənin baş katibi Kamal Məmmədov, "Motivator Azerbaijan" layihəsinin yaradıcısı Rüfət Həsənov, Gənclər və İdman Nazirliyinin idman şöbəsinin müdiri Fərid Mansurov, AMPK-nin vitse-prezidenti və ikiqat paralimpiya çempionu İlham Zəkiyev, Azərbaycan Peşəkar Boks Federasiyasının vitse-prezidenti Fərhad Acalov iştirak ediblər.

Əvvəlcə, görüş iştirakçıları Azərbaycan Prezidenti, müzəffər Ali Baş Komandan İlham Əliyevə və rəşadətli Azərbaycan Ordusuna xalqımıza bəxş etdiyi qələbə sevincinə görə təşəkkür ediblər. İştirakçılar Vətən müharibəsində qazanılan tarixi qələbə münasibətilə qazilərimizi təbrik edib, rəşadətli ordumuzun torpaqlarımızın azadlığı uğrunda göstərdiyi şücaətin əsl qəhrəmanlıq olduğunu vurğulayıblar.

İlham Zəkiyev bildirib ki, müharibə zamanı əlil olan şəxslər bu günədək də AMPK-nın milli komandalarının tərkibində iştirak edib, ölkəmizi beynəlxalq arenada böyük uğurla təmsil edirlər. Onların sırasında güllə atıcılığı idman növü üzrə komandanın baş məşqçisi Əkbər Muradov, həmin komandanın üzvü Elşən Cəbiyev, kamandan oxatma üzrə milli komandanın baş məşqçisi İlqar Abbasov kimi Qarabağ müharibəsi qazilərimiz var.

Komitənin baş katibi Kamal Məmmədov deyib ki, sağlamlıq imkanları məhdud olan qazilərimiz Paralimpiya Hərəkatına qoşularaq beynəlxalq arenada ölkəmizi təmsil edə bilərlər. O, yaxın gələcəkdə işğaldan azad edilmiş torpaqlarda, doğma Şuşamızda keçiriləcək mötəbər turnirlərdə qazilərimizin də iştirak edəcəyini və onların müharibə zamanı dalğalandırdığı şanlı bayrağımızı bir daha zirvələrə ucaldacaqlarına əmin olduğunu bildirib.

K.Məmmədov dövlətimizin başçısının tapşırığı ilə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən şəhid ailələri və qazilərin sosial problemlərinin həll edilməsi üçün böyük işlər görüldüyünü və növbəti görüşlərdə nazirlik nümayəndəsinin dəvət olunacağını qeyd edib.

Gənclər və İdman Nazirliyinin idman şöbəsinin müdiri Fərid Mansurov qazilərimizin idmana cəlb edilməsi ilə bağlı aparılan işləri yüksək qiymətləndirib. Qeyd edib ki, AMPK 25 il ərzində böyük uğurlara imza atıb. Gənclər və İdman Nazirliyi hər zaman olduğu kimi, bu gün də AMPK-ya dəstək verməkdə davam edir.

Komitənin güllə atıcılığı üzrə idmançısı, Aprel döyüşlərinin qazisi Elşən Cəbiyev yaralandıqdan sonra Paralimpiya hərəkatına qoşularaq xidmətini idmançı kimi arenalarda davam etdirdiyini vurğulayıb. O, Vətən müharibəsi qazilərini də Paralimpiya Hərəkatına fəal qoşulmağa çağırıb.

Azərbaycan dövlətinin şəhid ailələrinə və Vətən uğrunda sağlamlığını itirmiş şəxslərə göstərdiyi diqqət və qayğıya görə minnətdarlıqlarını bildirən qazilərimiz qələbəyə müzəffər Ali Baş Komandanın qətiyyəti, xalqımızın birliyi və həmrəyliyi sayəsində nail olunduğunu vurğulayıblar. Onlar Paralimpiya Hərəkatına qoşularaq idman vasitəsilə ölkəmizi beynəlxalq arenalarda təmsil etməyə hazır olduqlarını bildiriblər.

# Pedaqogika üzrə elmlər doktoruna yubiley medalı təqdim olundu






Yanvarın 12-də Azərbaycan Respublikasının Əməkdar bədən tərbiyəsi və idman xadimi Dilqəm Quliyevə Azərbaycan Vətən Müharibəsi Veteranları İctimai Birliyi tərəfindən "Milli Ordu-100" yubiley medalı təqdim edilib. İdman sahəsilə yanaşı, vətənpərvərlik mövzusunda da maraqlı yazıları ilə uzun illər yorulmaz fəaliyyət göstərən pedaqogika üzrə elmlər doktoru Dilqəm Quliyevin özünəməxsus ömür yolu var. Onun tərcüməyi-halı geniş və əhatəlidir.

Belə ki, Dilqəm Qasım oğlu Quliyev 1950-ci il avqustun 6-da Naxçıvan MR-nın Şərur rayonunun (indiki Kəngərli rayonu) Şahtaxtı kəndində anadan olmuşdur.

1989-cu ildə Azərbaycan Dövlət Bədən Tərbiyəsi İnstitutunun (indiki İdman Akademiyası) güləşmə və onun metodikası kafedrasında müəllim, baş müəllim (1990), tərbiyə işləri üzrə prorektor (1991), idman işləri üzrə prorektor (1992), idman və xarici əlaqələr üzrə prorektor (2001-2015) olmuş, hazırda idman tarixi elmi mərkəzinin direktoru vəzifəsində çalışır.

1972-ci ildən sərbəst güləş üzrə idman ustası, Azərbaycan Respublikasının Əməkdar məşqçisi (1996), Fəxri Bədən Tərbiyəsi və İdman İşçisi (1994), Bədən Tərbiyəsi və İdman Əlaçısı (1994), Milli Olimpiya Komitəsinin, Milli Olimpiya Akademiyasının (1998), Azərbaycan Respublikası Jurnalistlər Birliyinin üzvü (1994), Gənc Vətənpərvərlər Birliyinin ABTİA-nın dayaq Mərkəzinin sədri (2000), "İdmançı" qəzetinin baş redaktorudur (1998). "Tərəqqi" medallı professor, Azərbaycan Respublikasının "Əməkdar bədən tərbiyəsi və idman xadimi"dir.

2017-ci ildə bədən tərbiyəsi və idman sahəsində ilk dəfə olaraq Azərbaycanda "Azərbaycan Respublikasında müstəqillik dövründə bədən tərbiyəsi və idmanın inkişaf istiqamətləri (1991-2015-ci illər)" mövzusunda doktorluq dissertasiyasını müdafiə edərək, pedaqogika üzrə elmlər doktoru adını almışdır.

## Qadın idman gimnastikası üzrə yığma komandamıza yeni baş məşqçi təyin olundu

Azərbaycanın idman gimnastikası üzrə qadınlardan ibarət millisinə yeni baş məşqçi təyin olunub. Yığma komanda Belarusdan olan Olqa Barkalavaya tapşırılıb. O.Barkalava təyinatı ilə bağlı təəssüratlarını bölüşüb. O, millinin məşq etdiyi zalla və gimnastlarla tanış olduğunu bildirib: "İdman gimnastikasının inkişafı üçün burada hər cür şərait var. Çox gözəl məşq zalıdır. Mənə göstərilən etimada görə çox minnətdaram və çalışacağam ki, Azərbaycanın qadın idman gimnastları Avropa və dünya arenalarında güclü rəqabət aparmaq bacarığına malik olsunlar".




Qeyd edək ki, Olqa Barkalava 22 ildir ki, qadın idman gimnastikası üzrə məşqçilik fəaliyyəti ilə məşğul olur. O, son 6 il ərzində Belarus millisinin məşqçisi kimi fəaliyyət göstərib.

## Avropa çempionatının keçirilmə vaxtı və məkanı açıqlandı

Güllə atıcılığı üzrə Avropa çempionatı mayın 23-dən iyunun 6-dək Xorvatiyanın Osiek şəhərində keçiriləcək. Qitə təmsilçiləri Tokio Olimpiadasına lisenziya xarakteri daşıyan çempionatda tapança və tüfəngdən 10, 25, 50 və 300 metr məsafələrə atəşaçma yarışlarında iştirak edəcəklər. Qitə çempionatında güllə atıcılarımız da mübarizə aparacaqlar. Bundan əvvəl qitə turnirinin Finlandiyanın Lohya şəhərində fevralın 26-dan martın 6-dək keçirilməsi nəzərdə tutulsa da, koronavirus pandemiyası səbəbindən təxirə salınmışdı.

Xatırladaq ki, Azərbaycanın güllə atıcısı Ruslan Lunyov İtaliyanın Bolonya şəhərində keçirilən qitə çempionatında 25 metr məsafəyə kiçikçaplı tapançadan atəşaçma yarışının qalibi olmaqla Tokio-2020 Yay Olimpiya Oyunlarına vəsiqə qazanıb.

## Karateçilərimiz karyerasını başa vurub, məşqçiliyə başladılar

Karate üzrə yeniyetmələrdən ibarət seçmə komandaya yeni məşqçi təyinatları olub.




Azərbaycan Milli Karate Federasiyasının mətbuat xidmətindən "Olimpiya dünyası" qəzetinə verilən məlumata görə federasiya rəhbərliyi hazırlığı gücləndirmək məqsədilə aşağı yaşlı seçmə komandanın məşqçilər heyətinə yüksək titullu mütəxəssislər cəlb etməyi qərara alıb. İdmançı karyerasını başa vuran milli komandanın keçmiş üzvlərindən Şahin Atamov 14-15 yaşlı yeniyetmələrə böyük məşqçi, Niyazi Əliyev isə məşqçi təyin ediliblər. Təyinatla bağlı keçirilən görüşdə federasiyanın prezidenti Yaşar Bəşirov, milli komandanın baş məşqçisi Qurban Tağıyev və böyük məşqçi Şahin Xudaverdiyev Azərbaycan karatesinə nüfuz qazandıran tanınmış idmançıların təcrübəsinin gənc nəslə faydalı olacağını bildiriblər.

Yeniyetmə və gənclərin baş məşqçisi Anar Allahverdiyevin 16-21 yaşınadək gənclər üzrə seçmə komandalarda köməkçiləri isə böyük məşqçilər Seymur Xudaverdiyev və Nağı Mehdiyev olacaq.

Yeniyetmə və gənclər seçmə komandalarını mayda Kiprdə, iyulda Xorvatiyada, sentyabrda Türkiyədə və dekabrda İtaliyada Karate1 Gənclər Liqası, avqustda isə Finlandiyada Avropa çempionatı gözləyir. Yeni məşqçi təyinatları, həmçinin aşağıyaşlı idmançıların qarşıdakı Gənclərin Yay Olimpiya Oyunlarına hazırlıq xarakteri daşıyır.

# *Cüdoçumuz liderliyi əldən verdi*

Beynəlxalq Cüdo Federasiyası (İJF) yeni dünya reytinqini açıqlayıb. Qətərin paytaxtı Dohada keçirilən "World Masters" turniri cədvəldə bir sıra dəyişikliklərə səbəb olub. Azərbaycan millisinin 7 cüdoçusu "Top-20"də yer alıb. Ən yaxşı təmsilçilərimiz ikinci sırada qərarlaşan Rüstəm Orucovla (73 kq) və İrina Kindzerskadır (+78 kq). Zirvəni əldən verən R.Orucov 1 pillə geriləməklə 6575 xala malikdir. 6564 xalı olan İ.Kindzerska isə bir addım irəliləyib. 4 pillə geriləyən Məmmədəli Mehdiyev (90 kq) 4309 xalla 9-cudur. Dohada gümüş medala sahib çıxan Zelim Kotsoyev (100 kq) isə 4 pillə irəliləyib. Aktivindəki xalların sayını 4327-yə çatdıran cüdoçumuz ilk "onluğ"u qapayır.

4100 xalı olan Elmar Qasımov (100 kq) 11-ci, 2794 xala malik olan Orxan Səfərov (60 kq) isə 18-cidir. Onlar hərəyə bir pillə geriləyiblər. Hidayət Heydərov artıq çıxış etmədiyi 73 kq çəki dərəcəsində 2 pillə geriləməklə 3346 xalla 13-cüdür.

Qeyd edək ki, 2518 xala malik Uşangi Kokauri 2 pillə geriləyindən "Top-20"dən kənar qalıb. O, hazırda 21-ci sıradadır.

Şəhidlik zirvəsinə ucalan idmançılar

***Hərb tariximizin zəfər salnaməsi olan 44 günlük Vətən müharibəsi Azərbaycanın qüdrətini bir daha bütün dünyaya göstərdi. Silahlı Qüvvələrimizin müzəffər Ali Baş Komandanı İlham Əliyevin səsləndirdiyi “Qarabağ Azərbaycandır!” şüarı torpaqlarımızın ərazi bütövlüyü uğrunda başladığımız haqq savaşımızın əsas qayəsi, əsgər və zabitlərimizi qələbəyə səsləyən rəhbər çağırışı oldu. Məhz bu şüar altında birləşən hər bir Vətən oğlu hərb tariximizə şanlı zəfərlərlə dolu günlər yazdı. Bu gün vətəndaş olaraq hər birimiz Vətən naminə döyüşən və yaralanan qazilərimizlə, qanları ilə dastan yazan şəhidlərimizlə hər zaman qürur duymalı, onları tanımalı və tanıtmalıyıq.***

# Qanı ilə tarix yazan qəhrəmanların xatirələri qəlbimizdən heç vaxt silinməyəcək



Bu yazımızda 44 günlük Vətən müharibəsində iştirak edən və adını şəhidlik kimi uca bir zirvəyə yazdıran qəhrəman oğullarımızdan biri, kiçik çavuş Xurşudov Nazir Müxənnət oğlunu oxucularımıza tanıdacağıq.

Qəhrəmanımız 1985-ci il fevralın 1-də Xaçmaz rayonunun Çaykənarı kəndində anadan olub. Burada Milli Qəhrəman Yavər Şahbazov adına tam orta məktəbi bitirən Nazir uşaqlıqdan idmana maraq göstərib. Əvvəlcə məşqçi Nurəddin Əhmədovun yanında şotakan-karate idman növünün sirlərinə yiyələnib. Sonra isə böyük qardaşı Maarif Xurşudovun təşəbbüsü və rəhbərliyi ilə karatenin vado-ryu növü ilə məşğul olub. Qardaşından bu idman növünün incəliklərini mənimsəyən Nazir müxtəlif illərdə bir sıra respublikadaxili yarışlarda və zona birinciliklərində mükafatçılar sırasında yer alıb. Nazir Xurşudov orta məktəbi başa vurduqdan sonra hərbi xidmətə yollanıb. Əvvəlcə Murovda, daha sonra isə Gədəbəydə kəşfiyyat bölüyündə xidmət edib. Xidmətini başa vurduqdan sonra Vətənə olan sevgisi onu yenidən hərbiyə bağlayıb. Öz istəyi ilə ordu sıralarına yazılan Nazir Xurşudov bir müddət Azərbaycan Sülhməramlı Qüvvələrində xidmət edib. Hərbidə çalışdığı müddətdə Əfqanıstan, Pakistan və Bolqarıstanda xüsusi kurslarda iştirak edib. Hərbçi kimi bir sıra yarışlarda da ölkəmizi təmsil edib və mükafatçılar sırasında yer alıb. Bir müddətdən sonra ordudan tərxis olunsa da, Müdafiə Nazirliyinə ərizə yazaraq yenidən hərbi sahədə fəaliyyətini davam etdirib. O, bu dəfə Qusar rayonunun kəşfiyyat bölüyündə xidmət etməyə başlayıb. Ümumilikdə 35 illik ömrünün 11 ilini hərbidə keçirən Nazir bir sıra mühüm hərbi əməliyyatların da iştirakçısı olub. O, Vətən müharibəsinə qədər 2016-cı il şanlı aprel döyüşlərində və ötən ilin iyul ayında baş verən Tovuz döyüşlərində qəhrəmancasına döyüşüb. Vətən müharibəsində yenidən döyüş meydanına atılan igidimiz Ağdam, Füzuli, Cəbrayıl və Xocavənd rayonları uğrunda gedən hərbi əməliyyatlarda iştirak edib. O, oktyabrın 21-də Xocavənd istiqamətində gedən döyüşlər zamanı qəhrəmancasına şəhid olub. Şəhidimiz oktyabrın 28-də doğulduğu Xaçmaz rayonunun Çaykənarı kəndində dəfn olunub. Nazir Xurşudov ölümündən sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sərəncamı ilə “Vətən uğrunda” medalı və “Cəbrayılın azad olunmasına görə” medalı ilə təltif edilib.

Qəhrəmanımızın keçdiyi döyüş yolu barədə ətraflı məlumat əldə etmək üçün şəhidimizin böyük qardaşı Maarif Xurşudovla əlaqə saxladıq. Bakının Biləcəri qəsəbəsindəki 284 saylı və 143 saylı tam orta məktəbdə karatenin vado-ryu növü üzrə məşqçilik edən Maarif Xurşudov bizimlə söhbətində qardaşının Vətənə olan sevgisindən, idmançı karyerasından və arzularından danışdı.

## “Cəbhədə mənim qardaşlarım döyüşür və mən onların yanında olmalıyam”

“Müharibə başlayanda qardaşım Nazir mənə zəng edərək, döyüşlərə yollandığını dedi. İmkan olduqca bizimlə əlaqə saxlayırdı. Hərbi əməliyyatlar başlayandan iki həftə sonra qardaşım Cəbrayıl istiqamətində gedən döyüşlərdə ağır yaralandı. Ermənilər onların olduğu ərazini minaatanla vurmuşdular. Bu hadisə zamanı Nazir baldır, bud, çiyin və kürək nahiyəsindən qəlpə yaraları almışdı. Füzulinin Qaradağlı kəndindəki hospitalda müalicə alsa da, vəziyyəti ağır idi. Hətta həkimləri onu Bakıdakı xəstəxanalardan birinə yollayacaqları barədə məlumat vermişdilər. Lakin Nazir bir neçə gündən sonra bizə zəng edərək yenidən döyüş bölgəsinə yollanacağını dedi. O, tezliklə Cəbrayıl rayonu istiqamətinə yollandı. Düzü, Nazirin tam sağalmadan yenidən döyüşlərə yollanmasına hər birimiz etiraz etdik. Qalıb müalicəsini tam davam etdirməsini istəyirdik. Amma o bizə dedi ki, cəbhədə mənim qardaşlarım döyüşür və mən onların yanında olmalıyam, haqqınızı halal edin. Döyüşlərə yenidən yollandıqdan sonra onunla hər gün telefonda danışırdıq. Oktyabrın 17-si qardaşımla sonuncu danışığımız oldu. Bir daha ondan xəbər gəlmədi. Ona 3 gün zəng çatmadığı üçün artıq hər birimiz narahatlıq keçirirdik. Oktyabrın 22-də Nazirin komandiri anama zəng edərək onun şəhid olması barədə xəbər verdi. Düzü, əvvəl heç birimiz buna inanmırdıq. Dərhal onun bizim kənddən olan əsgərinə zəng etdim. Lakin onunla da əlaqə saxlaya bilmədim. Sonra bir neçə yerlə əlaqə saxlayaraq xəbəri dəqiqləşdirməyə çalışdım. Bir neçə günlük axtarışdan sonra qardaşım Eldarla birgə Füzuliyə yollandım. 5 gündən sonra isə onun nəşini naməlum şəhidlərin arasından tapdıq. Qardaşım yaralananda sənədlərini bizə vermişdi. Üstündə heç bir sənədi olmadığı üçün kimliyini müəyyən edə bilməmişdilər. Onun döyüşçü yoldaşları ilə sonradan əlaqə saxlayıb qardaşımın hansı şəraitdə şəhid olduğu barədə məlumat öyrəndim. Nazir Xocavənd istiqamətində gedən döyüşlərdə şəhid olub. Onu snayperlə vurmuşdular. Naziri vuran snayperçi muzdlu döyüşçü idi. Döyüşçü yoldaşlarının dediyinə görə Xocavənddə təpədə ermənilərin postu var idi. Nazir qumbaraatanla ermənilərin postunu vurduqdan sonra şəhid olan əsgər yoldaşının avtomatını götürərək, atəş açıb, irəli getdi. Yanında olan hərbçi yoldaşları ilə birgə qəhrəmancasına döyüşərək həmin postu ermənilərdən azad ediblər. Təəssüf ki, o, həmin döyüşdə aldığı snayper gülləsindən şəhid oldu. Nazirin nəşini həmin gün döyüş ərazisindən çıxara bilməmişdilər. Sonradan öyrəndim ki, o həmin zaman həddindən artıq əsəbi olub. Bunun da əsas səbəbi gənc əsgər yoldaşının yemək yeyərkən boğazından snayperlə vurularaq, şəhid olması imiş. Bu hadisədən sonra qəzəbini saxlaya bilməyən Nazir onun və digər hərbçi yoldaşlarının qisasını almaq üçün irəli atılıb”, - deyə şəhidimizin qardaşı Maarif Xurşudov bildirib.



Ailəli olan şəhid Nazir Xurşudovun 12 yaşlı Şahin və 11 yaşlı Asiman adlı oğlanları yadigar qalıb. Bu gün hər iki yeniyetmənin bir arzusu var - atalarının peşəsini davam etdirmək və ona layiqli bir övlad olmaq. “Nazir ailəli idi, iki oğlu var. Böyük oğlu Şahin 7-ci, kiçik oğlu Asiman isə 6-cı sinifdə oxuyur. Övladları da gələcəkdə onun kimi igid hərbçi olmaq istəyirlər. Nazirin şəhid olması xəbəri hər birimizə çox pis təsir etdi. Eləcə də, övladlarına. Bu gün onları nə qədər sakitləşdirməyə çalışsaq da alınmır, atalarını istəyirlər, onun üçün darıxırlar. Hətta böyük oğlu Şahin bizdən xəbərsiz gün ərzində iki, üç dəfə atasının qəbrinin üstünə gedir. Onun ailəsi Qusarda “N” saylı hərbi hissənin yanında kirayədə qalırdı. Lakin onları Xaçmaz rayonunun Çaykənarı kəndinə, atamın yaşadığı evə gətirdim. Təəssüf ki, burada onların təhsil alması üçün o qədər də şərait yoxdur. Çalışacağam ki, onları Bakıya gətirim, təhsillərini davam etdirmələri və idmanla məşğul olmaları üçün köməklik göstərim”, - deyə M.Xurşudov əlavə edib.

## “Ana, mən şəhid olsam ağlama...”

Ailədə üç qardaş, bir bacı olduqlarını deyən, Maarif Xurşudov qardaşlarının hər birinin məktəbdə oxuduğu illərdən idmanın karate növü ilə maraqlandığını vurğulayıb. Onun sözlərinə görə, hətta vado-ryu karate idman növünün Azərbaycanda ilk qurucusu, “Azərikan Vado-Ryu Karate-Do İdman Klubu” İctimai Birliyinin təsisçisi və prezidenti Gündüz Mahmudov Nazir Xurşudovu Xaçmaz rayonuna bu idman növü üzrə nümayəndə təyin etmişdi. Nazir bir müddət burada məşqçilik fəaliyyəti ilə də məşğul olub, bu idman növü üzrə öz bilik və bacarıqlarını yeniyetmə və gənclərlə bölüşüb. Lakin həyatını hərbiyə bağlayan və torpaqlarımızı azad görmək arzusu onu məşqçilik işindən bir qədər uzaqlaşdırdı.

“Nazir xaraktercə bir qədər çılğın idi. Hər zaman ürəkli və cəsur olub mənim qardaşım. Heç nədən qorxusu olmazdı. Həm idmançı kimi, həm də döyüşçü kimi bunu sübut etdi. Onun böyük arzuları var idi. Ən böyük arzularından biri də torpaqlarımızın düşməndən azad olmasını görmək idi. Buna çox inanırdı. O, torpaqlarımızın bütövlüyü uğrunda şəhid oldu və bu günləri görə bilmədi. Amma inanıram ki, qardaşımın ruhu bu gün şaddır. Nazir şəhid olmazdan əvvəl anamla danışanda demişdi ki, ana, mən şəhid olsam ağlama, məndən başqa iki oğlun da var. Təbii ki, biz ümid edirdik ki, o müharibədən sağ-salamat yenidən ailəsinin, uşaqlarının yanına qayıdacaq. Amma təəssüf ki, bu onun son döyüşü oldu, qardaşım Vətən uğrunda qəhrəmancasına döyüşərək şəhidlik zirvəsinə ucaldı. Nazir də daxil olmaqla bütün şəhidlərimizə Allahdan rəhmət diləyir, yaralı idmançılarımıza tezliklə şəfa tapmasını arzulayıram”, - deyə Maarif Xurşudov fikirlərini yekunlaşdırıb.

Vaxtı ilə Milli Qəhrəman Yavər Şahbazov adına tam orta məktəbdə oxuyan, Azərbaycan qəhrəmanlarına baxıb, onlardan örnək götürən Nazir Xurşudov bu gün özü bir qəhrəmanlıq nümunəsinə çevrilərək onların sırasına qoşuldu. Xalqımız isə Vətən uğrunda canlarından keçən belə igidlərimizin xatirəsini daim əziz tutacaq, böyük qürur hissi ilə onların qəhrəmanlıq salnaməsini gələcək nəsillərə ötürəcək.

*Azər Əlizadə*

# AFFA-nın icraçı vitse-prezidenti Vətən müharibəsinin iştirakçısı ilə görüşüb

Ötən il sentyabrın 27-də başlayan və 44 gün ərzində davam edən, rəşadətli Azərbaycan Ordusunun parlaq qələbəsi ilə yekunlaşan Vətən müharibəsinin iştirakçısı, Azərbaycan Futzal Federasiyasının Mətbuat xidmətinin rəhbəri Mahal Məmmədov ilə AFFA-nın inzibati binasında görüş keçirilib. Milli Assosiasiyanın rəsmi saytında yer alan xəbərə görə, icraçı vitse-prezident Elxan Məmmədov Azərbaycan



Prezidenti cənab İlham Əliyevin Sərəncamı ilə “Ağdamın azad olunmasına görə” medalı ilə təltif olunması münasibətilə Mahal Məmmədovu bir daha təbrik edib. Qeyd edək ki, M.Məmmədov müharibədə zabit kimi iştirak edib.

# Gənc futbolçu Vətən müharibəsində qəhrəmanlıq göstərib

***Gəncə Şəhər Gənclər və İdman Baş İdarəsinin rəisi Həmid Nəsirov və kollektivi Baş İdarənin nəzdində fəaliyyət göstərən Uşaq Gənclər İdman Məktəbinin yetirməsi, gənc futbolçu, Vətən müharibəsi iştirakçısı Sərxan Qəhrəmanovu ziyarət ediblər.***

Gəncə Şəhər Gənclər və İdman Baş İdarəsindən “Olimpiya dünyası” qəzetinə verilən məlumata görə, ziyarət zamanı H.Nəsirov işğaldan azad olunmuş torpaqlarımızın Azərbaycan xalqı üçün ən böyük sevinc və qürur hissi olduğunu qeyd edib və şəhid olan hərbi qulluqçuların qəhrəmanlığı barədə ətraflı məlumat verib. Vətən müharibəsinin iştirakçısı Sərxan Qəhrəmanov yoldaşları ilə birlikdə keçdiyi döyüş yolundan qürurla danışaraq, igid Azərbaycan oğullarının vətənpərvərliyini xüsusilə vurğulayıb.

UGİM-in futbol bölməsi üzrə baş məşqçi-müəllimi, respublikanın Əməkdar məşqçisi Məhəmməd Məmmədov Sərxan və Ələddin qardaşlarının yeniyetmə vaxtlarından futbolda uğurlu nəticələr əldə etmələri haqqında söz açıb. Xatırladaq ki, Sərxan Qəhrəmanovun qardaşı, hal-hazırda müddətli həqiqi hərbi xidmət keçən hərbi qulluqçu, Vətən müharibəsi iştirakçısı Ələddin Qəhrəmanov da Baş İdarə nəzdində Uşaq Gənclər İdman Məktəbinin futbol üzrə bölməsinin məzunudur və döyüşlərdə topçu kimi qəhrəmanlıq nümunəsi göstərdiyi üçün Azərbaycan Prezidenti cənab İlham Əliyevin Sərəncamı ilə “Füzulinin azad olunmasına görə” və “Xocavəndin azad olunmasına görə” medalları ilə təltif edilib.

Vətən müharibəsinin idmançı qəhrəmanları

***Azərbaycan xalqı dözümlülüyü, mərdliyi və şərəfi ilə hər zaman seçilib. Vətəninin hər bir qarışı üçün gözünü belə qırpmadan canını verən, xalqının mənəvi azadlığı uğrunda hər an döyüşə hazır olan vətənpərvər igidlərin yurdunda yaşamaq hər birimiz üçün qürurvericidir. Məhz belə qəhrəman oğullarımız sayəsində, doğma Qarabağımız düşməndən azad edildi. "Olimpiya dünyası" qəzeti olaraq, bu yazımızda oxucularımızı Vətən müharibəsində şücaətlə vuruşub yaralanan igidlərimizdən biri ilə tanış edəcəyik. Qəhrəmanımız "N" saylı hərbi hissənin əsgəri Elbrus Qəhrəmanlıdır. Elbrus 1997-ci il sentyabrın 3-də Bakı şəhərində dünyaya gəlib. Məktəb illərində hər zaman fəallığı ilə seçilən qazimiz, idmana da maraq göstərib. O, bir müddət idmanın sərbəst güləş növü ilə məşğul olub. 2014-cü ildə 87 saylı orta məktəbi bitirən Elbrus, 2015-ci ilin oktyabr ayında hərbi xidmətə yollanıb. Qazimiz 2017-ci ilin aprel ayında xidmətini şərəflə başa vuraraq, evinə qayıdıb. Lakin tale elə gətirir ki, Elbrus yenidən hərbi formanı geyinməli olur. İkinci Qarabağ Müharibəsinin qazisi ilə olan müsahibəmizi oxucularımıza təqdim edirik.***

# Vətən müharibəsinin qazisi: "Ölümü bir neçə saniyə qabaqlayıb, sağ qaldım"

***-Vətən müharibəsinin başlanması xəbərini eşidəndə hansı hissləri keçirdiniz?***

- Əslində bu xəbər bizim üçün gözlənilməz olmadı. Çünki hər birimiz bilirdik ki, doğma torpaqlarımız əvvəl-axır ya sülh, ya da müharibə yolu ilə azad olunacaq. Ona görə də, bu xəbəri sevinclə qarşıladım. Aprel döyüşlərinin iştirakçısı olduğum üçün mənə də tezliklə çağırış gələcəyini gözləyirdim. Nəhayət, sentyabrın 30-da çağırış gəldi və böyük şərəflə vətənimin köməyinə getdim.

***- Hansı ərazilərin azad olunması əməliyyatlarında iştirak etdiniz?***

- Əvvəlcə Füzuli istiqamətində irəlilədik. Həmin an keçirdiyim hissləri sözlə ifadə etmək çox çətindir. İllərin torpaq həsrəti, düşmənə olan nifrət hissi bizə əlavə güc, qüvvət verirdi. Elə bu güclə Füzulinin düşmən tapdağından azad edilməsi əməliyyatında iştirak etdik. Daha sonra Hadrut tərəfə istiqamətləndik. Bir yumruq olub düşməni məhv edərək, üçrəngli bayrağımızı Hadrutda dalğalandırdıq. Azad etdiyimiz hər bir qarış torpaq bizdə böyük qürur və fəxr hissi yaradırdı. Hadrutdan sonra Cəbrayıl və Xocavənd istiqamətində yola düşdük. Ordumuz burada da öz gücünü göstərdi və həmin əraziləri düşməndən təmizlədi. Növbəti məqsədimiz isə Qarabağın incisi olan Şuşada bayrağımızın dalğalanması idi. Çox təəssüf ki, noyabrın 3-də Şuşakənd deyilən ərazidə yaralandım. Bizim briqadanın əsas məqsədlərindən biri də Laçın dəhlizini ələ keçirmək, düşmənə silah və qidanın gəlişinin qarşısını almaq idi. Təbii ki, bunu ən yüksək səviyyədə yerinə yetirdik və düşməni hər tərəfdən məhv olunmasına nail olduq.

***- Yaralanma anını necə xatırlayırsınız?***

- Şuşanın yaxınlığında yerləşən Şuşakənd deyilən ərazidə olan yüksəkliyə qalxdıq. Təxminən 20 dəqiqə sonra düşmən müxtəlif istiqamətdən bizə atəş açmağa başladı. Qarşımızda düşmənin 3, arxa tərəfdə isə 2 tankı var idi. Düşmən müxtəlif silahlarla bizə hər bir yandan atəş açırdı. Elə həmin an mühasirəyə düşdüyümüzü anladıq. Hətta səngərə irəlilədiyim vaxtda düşmən atəşinə məruz qaldım. Lakin atılan güllələrin heç birinin mənə dəyməməsi həqiqətən də, bir möcüzə oldu. Hətta səngərə keçmək istədiyim vaxt oraya qumbaranın düşdüyünü gördüm. Ölümü bir neçə saniyə qabaqlayıb, sağ qaldım. Döyüşə başladığımız andan təxminən bir saat sonra isə yaralandım. Belə ki, avtomatın darağını dolduran zaman dizimə güllə dəydiyini hiss etdim. Əlimi dizimə vurdum və əvvəlcə güllənin ayağıma dəyib keçdiyini düşündüm. Etiraf edim ki, həmin an heç kim ayağını, qolunu, ümumiyyətlə, özünü düşünmürdü. Hər birimizin məqsədi düşməni məhv etmək və həmin yüksəkliyi ələ keçirmək idi. Buna görə də, dizimə dəyən gülləyə əhəmiyyət verməyib yenə də döyüşməyə davam etdim. Həmin anda isə daha bir düşmən gülləsinin başımdakı dəbilqəyə dəyərək havaya qalxdığını hiss etdim. Bir neçə dəqiqə sonra isə bizimlə yüksəkliyə qalxan həkim dizimi müayinə etdi və düşmən gülləsinin sol dizimdə qaldığını bildirdi. Ayaq üstə dayanmaqda çətinlik çəkirdim. Biz oradan təxliyyə olunanda artıq səhər açılırdı.

***- Bəs həkimlər hazırki vəziyyətinizlə bağlı nə deyirlər?***

- Güllə sol diz qapağımın altında, baldır sümüyümdə qaldığı üçün ayağımı rahat şəkildə yerə basmaqda və açıb-bağlamaqda çətinlik çəkirəm. Əməliyyatın fəsadları çox olacağı üçün həkimlər bir qədər ehtiyat edirlər. Ümumi reabilitasiya müddətinin təxminən 2 ay olacağını deyirlər. Hələ ki, müəyyən vaxtdan bir müayinə üçün xəstəxanaya gedirəm. Bir sözlə, yaralandığım gündən bu günə qədər düşmən gülləsini dizimdə gəzdirirəm. Bundan əlavə bir az yaddaşımla ələqədar problemlər yaşayıram. Buna səbəb isə yaxınlığımda baş verən mərmi partlayışlarıdır.

***- Yaralanma xəbərini ailə üzvlərinizə kim verdi?***

- Yaralanma xəbərimi ailəmə özüm çatdırdım. Hadrut istiqamətində yaralı əsgərlərin təxliyəsi üçün hospital var idi. Məni ilk olaraq oraya gətirdilər, ilkin yardım göstərdilər. Daha sonra Füzuliyə aparacaqlarını bildirdilər. Ümumiyyətlə, qeyd edim ki, istər həkimlər, istərsə də tibb bacıları bizə böyük səbr və qayğı ilə xidmət edirdilər. Noyabrın 4-də axşam saatlarında atama zəng edib yaralandığımı və Füzuliyə göndəriləcəyimi dedim. Noyabrın 5-də Füzulidəki hospitalda qaldım. Daha sonra Şirvan şəhərinə və sonda Bakıya göndərildim.

***- Ümumiyyətlə, döyüşçü ruhu vacib amillərdən biridir. Maraqlıdır, Siz bunu necə qiymətləndirirsiniz?***







- Bilirsiniz, döyüşmək üçün insanda güc və ruh-yüksəkliyi olmalıdır. Erməni əsgərində bu amillərin heç biri olmadığı üçün ən güclü silah belə onların əsl döyüşçü edə bilməz. Düşmənin dəfələrlə postlarını tərk edib, qaçdıqları olub. Hər bir insanda fiziki gücdən əlavə insani hisslərinin də olması vacibdir. Ən çətin anlarda belə əsgərlərimiz yoldaşlarını tərk etmədilər. Əsgərlərimiz çiynində yaralı döyüş yoldaşı olduğu halda, döyüşməyə davam edirdilər. Lakin ermənilər heç vaxt yaralı əsgər yoldaşlarını döyüş meydanından çiynində aparmayıblar. Hər biri yalnız özünü düşünüb, canını qurtarmaq fikrində olurdu.

***- Müharibədə iştirak etdiyiniz müddətdə elə an oldumu ki, bir daha ailə üzvlərinizi görməyəcəyinizi düşündünüz?***

- Düzünü desəm, yaralanandan sonra həmin hissləri keçirdim. Çünki döyüşün qızğın anında hospitala gedə bilməyəcəyimi anladım. Beləliklə, axşam saat 10-dan səhərə qədər qan itirərək, qaldım. Bir sözlə, sağ qalmağım möcüzə oldu. Düşmənin texnikası məhv edilədən sonra buradan sağ çıxa biləcəyimizə ümid yarandı. Mənim oradan enməyimə hərbçi yoldaşlardan biri kömək etdi. Düzdür, həmin anda da düşmənlər bizə həm snayper, həm də digər silahlardan atəş açırdılar, güllələr tam başımızın üstündən keçirdi. Buna görə də, tez bir zamanda oradan enməli idik. Mənə kömək edən əsgər yoldaşım Elşən Babayeva: "Məni burada buraxıb gedə bilərsən" - dedim. Çünki mənə kömək etdiyinə görə, o, yavaş-yavaş irəliləyirdi. Lakin o, təkidlərimə baxmayaraq, məni tək buraxmadı. Bir sözlə, deyə bilərəm ki, həyatda sağ qalmağımı ona borcluyam. Həqiqətən, qürurvericidir ki, düşmən gülləsinə baxmayaraq, heç kəs yanındakı yoldaşını döyüş meydanında tərk etmədi. Həmin an azərbaycanlı olmağın nə demək olduğunu bir daha dərk etdim.

***- İstərdik bir qədər də həmin yüksəkliyə necə qalxmağınız barədə danışasınız.***

- Yüksəkliyə yalnız piyada qalxmaq mümkün idi. Soyuğa və şaxtaya məhəl qoymadan irəliləyirdik. Çünki bizim bir məqsədimiz var idi, strateji yüksəkliyi ələ keçirmək və vəziyyətə nəzarət etmək. Həmin əraziyə heç bir texnikanı qaldırmaq mümkün olmadığı üçün biz özümüzlə yalnız qumbara və əl silahları götürdük. Hər birimizin gözünü sanki qan bürümüşdü və ən qısa müddətdə 30 ilin heyfini çıxıb, torpaqlarımıza yeni nəfəs vermək istəyirdik.

***- Düşmənin həmin ərazidə tank və digər texnikalarının sizi gözlədiyini bilirdiniz. Yalnız əl silahları ilə hücuma keçmək sizi qorxutmurdu?***

- Əlbəttə ki, hər birimiz insanıq və hər kəsdə olduğu kimi, bizdə də narahatlıq hissi var idi. Bu da düşmənimizi tanıdığımız və onlardan hər bir hiyləgərlik gözləməyimizdən irəli gəlirdi. Hündürlüyə qalxanda ermənilərin orada olmadığını gördük. Əvvəlcə buna çox təəccübləndik. Yavaş-yavaş orada yerləşməyə başladıq. Lakin təxminən 20 dəqiqədən sonra düşmən hücuma keçdi. Onlar bizi tələyə salmaq üçün bir müddət yüksəklikdən kənara çəkilmişdilər. Lakin nə qədər texnikasız, əl silahları ilə döyüşə getsək də, düşməni darmadağın etdik. Düzdür, müharibədə silah, tank və digər texnikaların olması çox önəmlidir. Amma ən əsası əsgərlər arasında birlik, yüksək əhval-ruhiyyə və haqq yolunda aparılan döyüş anlayışının olmasıdır.





***- İştirakçısı olduğunuz İkinci Qarabağ müharibəsində Sizi ən çox sarsıdan hadisə hansı oldu?***

- Günlərlə çiyin-çiyinə döyüşdüyümüz, çörəyimizi böldüyümüz, biri-birimizi düşməndən qorumağa çalışdığımız yoldaşların yaralanması, şəhid olması bizə çox ağır təsir edirdi. Bunlardan ən çətin qəbul edilən isə baş leytenant, tağım komandirimiz Əvdil Quliyevin şəhidlik zirvəsinə ucalmasıdır. Belə ki, komandirimiz əsgərlərə su gətirmək üçün neytral əraziyə getmişdi. Lakin heç bir qaydaya əməl etməyən ermənilərin atəşi nəticəsində Əvdil Quliyev şəhadətə ucaldı. Ona yardım üçün gedən mayorumuz da amansız düşmənin snayperdən açdığı atəş nəticəsində gözündən vurularaq şəhid oldu. Həmin dəqiqələr hər birimiz üçün çox ağır və sarsıdıcı idi. Bu hadisədən sonra sözlə ifadə olunmayacaq hirslə, qəzəblə tez bir zamanda onların qisasını almağa can atırdıq.

## "Yaralanandan sonra atama dedim ki..."

***- Düşmən tapdağında olan torpaqlarımıza uzun illərdən sonra ilk ayaq basan hərbçilərimiz oldu. Heç düşünürdünüz ki, bu şərəfə layiq olanlardan biri də Siz olarsınız?***

- Düzünü desəm, işğal olunan torpaqlarımızın sülh və ya müharibə yolu ilə gec-tez azad olunacağına inanırdım. Çünki Qarabağ bizim əzəli torpağımızdır. Hər kəs bilirdi ki, vaxt gələcək biz doğma torpaqlarımıza qayıdacağıq. Lakin etiraf edim ki, bu tarixi hadisədə şəxsən iştirak edəcəyimi düşünmürdüm. Fəxr edirəm ki, tarixin bir parçası olmaq mənə də qismət oldu. Bu, həqiqətən də çox qürurvericidir. Qeyd edim ki, yeniyetmə vaxtlarımda rayonlara səyahət etməyi çox sevirdim. Atam həmin vaxtlar mənə Azərbaycanın Qarabağ kimi gözəl diyarının olduğunu, bir gün o bölgəyə də səyahət edəcəyimi demişdi. Yaralanandan sonra atama dedim ki, xatırlayırsan, mənə belə sözlər demişdin. Nəhayət, mənə Qarabağı görmək qismət oldu.

***- Qeyd etdiniz ki, hərbi xidmətdə olduğunuz vaxt aprel döyüşlərinə təsadüf edib.***

- Düzdür, aprel döyüşləri hərbi xidmətdə olduğum vaxt ilə üst-üstə düşdü. Azərbaycan Ordusunun general-mayoru Mais Bərxudarovun rəhbərliyi altında dörd günlük döyüşlərdə iştirak etməyim mənim üçün böyük bir şərəf oldu. Döyüşlərdə kəşfiyyatçı qismində vuruşurdum. Böyük həyəcan və qürur hissi ilə strateji yüksəklik olan Lələtəpə yüksəkliyinin və Cocuq Mərcanlı kəndinin azad edilməsi əməliyyatlarında iştirak etdim. Bu səbəbdən Vətən müharibəsində artıq bir qədər təcrübəyə sahib idim.

***- Qələbə xəbərini hospitalda eşitdiniz. Elə bir şəxs var idimi ki, bu xəbəri onunla bölüşmək, qeyd etmək istəyirdiniz?***

- Bu xəbəri eşidəndə sözlə ifadə edilməyəcək sevinc hissi yaşadım. Qələbəni müharibə vaxtı yaxın olduğum hərbçi yoldaşlarım Elşən Babayev, Orxan Bədəlov və Tərlan Qəhrəmanov ilə qeyd etmək istərdim. Onlardan birinin mənim həyatımı xilas etməsini də nəzərə alsaq, döyüş yoldaşlarımla bir can olduq desəm, yanılmaram.

***- Qalib ordunun, qalib əsgəri kimi evə qayıtmaq necə bir hiss idi?***

- Bu, həqiqətən də çox qürurvericidir. İllərdir düşmən tapdağında olan torpaqların azad olunmasında payımın olması, xalqımızın sevincinə səbəb olmaq çox gözəl bir duyğudur. Lakin nə qədər sevinsək də, bir gözümüz şəhidlərimiz üçün daim ağlayacaq. Allahdan bütün şəhidlərimizə rəhmət diləyirəm. Çox heyif ki, onlar qazandıqları qələbəni görə bilmədilər. Amma inanıram ki, onların ruhları şaddır.

***- Vətən müharibəsindən sonra Azərbaycan Respublikasının hərbi qulluqçuları medallarla təltif olundular. Bildiyimizə görə təltif olunanlar arasında Sizin də adınız var.***

- Bəli, Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə 4 medalla təltif edildim. Əvvəlcə, "Cəsur döyüşçü" medalı ilə mükafatlandırıldım. Sonra isə "Cəbrayılın azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə" və "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildim. Adımı təltif olunanların arasında görmək mənim üçün sevindirici oldu.

***Türkay Niftəliyeva***

Ş a h m a t

## Qrossmeysterimiz mərhələ yarışının qalibi oldu

Azərbaycan şahmatçısı Şəhriyar Məmmədyarov “Titled Tuesday Blitz” Qran-Prisinin mərhələ yarışının qalibi olub. 11 turdan 10 xal toplayan qrossmeyster birinci yeri tutub. Ondan yarım xal geri qalan hindistanlı Raunak Sadvani və ukraynalı Aleksandr Zubov sonrakı iki pillədə qərarlaşıblar. İsveçrə sistemi üzrə keçirilən turnirdə 741 şahmatçı iştirak edib.

## Şəhid Sənan Hüseynovun xatirəsinə şahmat turniri keçirilib

Bakı Şəhər Gənclər və İdman Baş İdarəsi və “PREMİER SCHOOL OF CHESS”in birgə təşkilatçılığı ilə Vətən müharibəsində şəhid olmuş Sənan Hüseynovun xatirəsinə həsr olunmuş onlayn şahmat turniri keçirilib. Yarışda 91 zəka sahibi iştirak edib. Yekun nəticələrə görə, ümumi hesabda Kənan Qarayev, Kənan Əhədzadə, Elxan Bayramov ilk 3 yeri tutublar.

Qızlar arasında ən yüksək nəticəni Əsnad Baxışzadə, 12 yaşadək yeniyetmələr arasında Həsən Orucov, 8-10 yaşadək uşaqlar arasında isə Allahverdi Ümid, İbrahim Səmədov göstəriblər.

Qeyd edək ki, Sənan Hüseynov noyabrın 8-də Şuşa istiqamətində gedən döyüşlər zamanı qəhrəmancasına şəhid olub.

## Respublika şahmat turniri başa çatıb

Şahmat üzrə 20 Yanvar şəhidlərinin xatirəsinə həsr olunmuş respublika turniri başa çatıb. “Təhsil” Respublika İdman Mərkəzinin təşkilatçılığı ilə keçirilən yarışda iştirakçılar İsveçrə sistemi üzrə 11 turda mübarizə aparıblar. Yekun nəticəyə görə, 9,5 xal toplayan Şiroğlan Talıbov əlavə göstəricilərə görə yarışın qalibi olub. Onunla eyni xalı yığan Əli Süleymanov, Rəvan Uğuzov və Süleyman Süleymanlı sonrakı 3 yerdə qərarlaşıblar. Qızlar arasında keçirilən yarışlarda isə 8 xal toplamış Səbinə Rzalı, Aytac Məmmədova və Minurə Yusifli ilk 3 yerləri tutublar.

Yarışda Təhsil Nazirliyi sistemində fəaliyyət göstərən uşaq-gənclər idman şahmat məktəblərinin və şahmat klublarının 17 yaşadək (2004-cü il təvəllüdlü və daha kiçik yaşlı) şahmatçıları iştirak ediblər.

## Gəncə şahmatçısı dünya çempionatındakı uğurlu çıxışına görə təltif edilib

Gəncə şahmatçısı, dünya çempionatının mükafatçısı Səadət Bəşirli təltif olunub. Tədbirdə Gəncə Şəhər Gənclər və İdman Baş İdarəsinin rəisi Həmid Nəsirov yeniyetmələr arasında keçirilmiş dünya çempionatında yüksək nəticə əldə etmiş S.Bəşirliyə fəxri diplom və dəyərli hədiyyə təqdim edib.

Qeyd edək ki, Səadət Bəşirli yeniyetmələrin dünya çempionatının Avropa qitəsi üzrə seçmə mərhələsində 46 ölkədən 10 yaşınadək 53 qız şahmatçı arasında



ən yaxşı nəticə göstərərək birinci yeri tutub. Səkkiz yaşlı idmançı çempionatın yekun mərhələsində play-off sistemi ilə keçirilən səkkizdəbir və dörddəbir final mərhələlərini uğurla keçərək yarımfinala yüksəlib. O, çempionatın ümumi yekununda dördüncü olub.

## Onlayn şahmat turnirinə yekun vurulub

Gəncə şəhər Gənclər və İdman Baş İdarəsinin, “Təhsil” Respublika İdman Mərkəzinin və Gəncə şəhər 2 saylı Uşaq-Gənclər İdman-Şahmat Məktəbinin birgə təşkilatçılığı ilə 20 Yanvar şəhidlərinin xatirəsinə həsr olunmuş onlayn şahmat turniri keçirilib. 169 şahmatçının (136 oğlan, 33 qız) iştirak etdiyi xatirə turniri İsveçrə sistemi ilə 7 turdan ibarət olmaqla təşkil olunub. Turnirdə Gəncə ilə yanaşı, Bakı, Sumqayıt, Lənkəran, Quba, Göyçay, Mingəçevir, Zaqatala, Samux, Göygöl, Balakən, Şabran və Neftçaladan olan zəka sahibləri mükafatalayiq yerlər uğrunda mübarizə aparıblar. Dünya və Avropa birinciliklərinin qalibi, mükafatçısı və iştirakçısı olan perspektivli şahmatçıların turnirdə mübarizə aparması gərginliyi bir qədər artırıb. Yarışın yekun nəticələrinə görə ilk 3 yeri tutan oğlan və qızlar müvafiq olaraq, diplom və pul mükafatları ilə təltif olunublar.

## “Fuzuli Cup” turnirinin qalibləri müəyyənləşib

Yanvarın 24-də “Karabakh is Azerbaijan” şahmat seriyası çərçivəsində ikinci turnir - “Fuzuli Cup” keçirilib. Chess.az saytının təşkil etdiyi yarışda Azərbaycan, Türkiyə və Ukraynadan ümumilikdə 57 şahmatçı iştirak edib. 90 dəqiqə davam edən turnirin qalibi (10 xal) İmişli rayonunun yetirməsi Elnur Mehtiyev olub. İkinci yeri Rəvan Uğuzov (Bakı, 8 xal) tutub. Üçüncü pillədə isə Türkiyə təmsilçisi Kutay Sakmak (6 xal) qərarlaşıb.

İki turnirin qalibi olan E.Mehtiyev ümumi hesabda, 20 xalla liderlik edir. İkinci və üçüncü yerləri 8 xalla, müvafiq olaraq Rəvan Uğuzov (8 xal) və Orxan Bağırov (Bakı, 8 xal) tutublar.

Turnirlər Lichess.org platforması üzərindən oynanılır. Seriya yarışı, ümumilikdə 8 turnir və böyük finaldan ibarət olacaq. Hər bir turnir işğaldan azad olunmuş şəhərlərimizin adını daşıyacaq. Səkkiz turnirin hər birində ilk altı yeri tutmuş şahmatçılar finala düşmək üçün xallar qazanacaqlar. Seriyanın sonunda, ən çox xal toplamış ilk 10 şahmatçı finalda oynamaq hüququ əldə edəcək. Yarışlar bazar günü, Bakı vaxtı ilə saat 12:00-da keçiriləcək və 90 dəqiqə davam edəcək. Yarışda nəzarət vaxtı 3 dəqiqə + hər gedişə 2 saniyədir.

Yanvarın 31-də “Zangilan Cup”, fevralın 7-də “Qubadli Cup”, fevralın 14-də “Shusha Cup”, fevral 21-də “Agdam Cup”, fevralın 28-də “Kalbajar Cup”, martın 7-də “Lachin Cup” turnirlərinin təşkili planlaşdırılıb. Böyük final - “Karabakh is Azerbaijan Grand Final” martın 14-də olacaq.

Xatırladaq ki, “Karabakh is Azerbaijan” seriya yarışı çərçivəsində Azərbaycan və Türkiyə şahmatçılarının iştirakı ilə birinci turnir - “Jabrail Cup” yanvarın 17-də keçirilib.



Əbu-Dabidə “Döyüş adası”nda keçirilən Mütləq Döyüş Çempionatı (UFC) turnirinin əsas döyüşündə amerikalı MMA döyüşçüsü Dastin Porye irlandiyalı Konor Makqreqorla üz-üzə gəlib. D.Porye maraqla gözlənilən döyüşün ikinci raundunda texniki nokautla qələbə qazanıb.

## Dastin Porye Konor Makqreqordan məğlubiyyətin əvəzini çıxdı

Bu, Makqreqorla Porenin sayca ikinci qarşılaşmasıdır. Onlar altı il əvvəl də döyüşüblər və həmin vaxt irlandiyalı idmançı qələbə qazanmışdı. Məhz bu görüş həmin döyüşün revanşı hesab olunurdu. Beləliklə, Porye rəqibinə qalib gələrək revanş almış oldu.

K.Makqreqor UFC-də 22 dəfə qələbə qazanıb, 5 dəfə məğlub olub. Porye isə 27 döyüşdən qalib ayrılıb, 6 dəfə məğlubiyyətlə üzləşib.

Daha əvvəl bildirilib ki, karyerasını başa vurmuş Həbib Nurməhəmmədov Makqreqor-Porye döyüşünün qalibi ilə qarşılaşa bilər.

## Təyyarə qəzasında klub prezidenti və 4 futbolçu dünyasını dəyişdi

Braziliyanın Portu-Nasional (Tokantis ştatı) şəhərində təyyarə qəzası baş verib. Hadisə zamanı təyyarədə pilotdan başqa, Braziliyanın dördüncü divizionunda mübarizə aparan “Palmas” klubunun prezidenti və dörd futbolçusu da olub.

Belə ki, Luzimanqese limanından havaya qalxan şəxsi təyyarə bir neçə dəqiqə sonra uçuş zolağının yaxınlığındakı əraziyə düşərək partlayıb. Nəticədə klub prezidenti Lukas Meyra və dörd futbolçu - Lukas Praksedes, Gilyerme Noe, Ranule, Markus Molinari həlak olub.

Qeyd edək ki, komanda səfərdə “Vila-Nova” klubuna qarşı oynamalı idi. Futbolçular və klub prezidenti də məhz bu oyun üçün Qoyaniyaya uçurdu.




## UEFA və FİFA-dan birgə bəyanat

UEFA və FİFA birgə bəyanatla çıxış ediblər. Adıçəkilən qurumlar Avropa Super Liqası turnirinin yaradılması ehtimalına sərt reaksiya bildiriblər. Bəyanatda vurğulanıb ki, klublar tərəfindən təşkil edilməsi gündəmdə olan Avropa Super Liqasına qatılacaq komandalar və futbolçular həm UEFA-nın, həm də FİFA-nın nəzdində keçirilən bütün turnirlərdə iştirak hüququndan məhrum ediləcəklər.

Buna klub turnirləri ilə yanaşı, milli komandaların beynəlxalq oyunları da şamildir. FİFA məsələ ilə bağlı bütün federasiyalara xəbərdarlıq göndərib.

## Millimizin oyunu xanım referiyə həvalə olunub



Yanvarın 29-da futzal üzrə Avropa çempionatının seçmə qrup mərhələsi çərçivəsində keçiriləcək Azərbaycan - Slovakiya oyununun hakimləri müəyyənləşib. Qarşılaşmanı Rusiyadan olan hakimlər idarə edəcəklər. Matçın birinci hakimi İrina Velikanovadır. Digər xətdə isə Yuri Neverov iş başında olacaq. Üçüncü hakim funksiyasını həmyerlimiz Hikmət Qafarlı yerinə yetirəcək. Saniyəölçən isə Knyaz Əmiraslanov olacaq. Qeyd edək ki, Azərbaycan - Slovakiya oyunu qapalı keçiriləcək. Koronavirus pandemiyası ilə əlaqədar Nazirlər Kabineti yanında Operativ Qərargahın tələb və tövsiyələri, oyunun qapalı məkanda keçiriləcəyi nəzərə alınaraq, görüşə KİV nümayənləri və azarkeşlər buraxılmayacaq.

Qeyd edək ki, Bakı İdman Sarayında keçiriləcək görüş saat 18:00-da start götürəcək.

## Klublararası dünya çempionatının püşkü atıldı

Bu ilin fevralında Qətərdə təşkil olunacaq klublararası dünya çempionatının püşkatma mərasimi keçirilib. İsveçrənin Sürix şəhərində baş tutan tədbirdə 1/4 final, yarımfinal və finalda üz-üzə gələcək cütlüklər müəyyənləşib.

UEFA Çempionlar Liqasının son qalibi olan Almaniya “Bavariya”sı mübarizəyə yarımfinaldan başlayacaq. Həmçinin Libertadores Kubokunun qalibi (Braziliyanın “Palmeyras” və ya “Santos” klubu) də birbaşa bu raunda vəsiqə qazanacaq.

**4 fevral**

*1/4 final mərhələsi*

“Tiqres” (Meksika) - “Ulsan” (Cənubi Koreya)
“Əl-Duhail” (Qətər) - “Əl-Əhli” (Misir)

**7 fevral**

*Yarımfinal*

Libertadores kubokunun qalibi - “Tiqres” / “Ulsan” cütünün qalibi

**8 fevral**

“Bavariya” - “Əl-Duhail” / “Əl-Əhli” cütünün qalibi

**11 fevral**

*Final*



Qeyd edək ki, turnirin son qalibi İngiltərənin “Liverpul” klubudur.

# FUTBOL



# Avropadan transfer xəbərləri




## İngiltərə

İngiltərə millisinin sabiq futbolçusu Cek Uilşirin yeni klubu müəyyənləşib. 29 yaşlı yarımmüdafiəçi "Bornmut"a keçib. Onunla 2020-2021-ci illər mövsümünün sonuna kimi müqavilə imzalanıb.

Qeyd edək ki, Cek Uilşir 2016-2017-ci illər mövsümündə də icarə əsasında İngiltərə təmsilçisində oynayıb. Onun son klubu ötən ilin oktyabrında ayrıldığı "Vest Hem" olub.

* * *

"Arsenal" "Sauthempton"un futbolçusu Rayan Bertrandı transfer etmək istəyir. Bu barədə "Evening Standard" nəşri məlumat yayıb. Baş məşqçi Mikel Arteta 31 yaşlı müdafiəçini Kiran Tirinlə rəqabət yarada biləcəyini düşünür. İngiltərəli oyunçunun klubu ilə müqaviləsinin müddəti 2021-ci ilin yayında başa çatacaq.

Qeyd edək ki, Bertrand "Sauthempton"la 18 matç keçirib.

* * *

"Arsenal" Madrid "Real"ından Martin Edeqoru almağa hazırlaşır. 22 yaşlı yarımmüdafiəçi ilə yaxın saatlarda razılıq əldə olunacağı gözlənilir. Madrid təmsilçisi isə norveçli oyunçunu yalnız icarəyə vermək istəyir.

Qeyd edək ki, Edeqor bu mövsüm cəmi 7 matçda meydana çıxıb.

* * *

"Arsenal" "Brayton"un qapıçısı Metyu Rayanı icarəyə götürüb. Avstraliyalı qolkiperlə mövsümün sonunadək müqavilə imzalanıb. Qeyd edək ki, Rayan Avropada "Brügge", "Genk" və "Valensiya"da da çıxış edib.

* * *

"Çelsi" heyətini yeni futbolçu ilə gücləndirmək niyyətindədir. "Zadəganlar" "Monako"dan Oralen Tçuameni almaq istəyir. London klubu 20 yaşlı yarımmüdafiəçini məhz bu qış transfer pəncərəsində sıralarına cəlb etməyi müzakirə edir.

Qeyd edək ki, Oralen bu mövsüm Liqa 1-də 19 matç keçirib.

## İtaliya

"Yuventus" heyətini yeni futbolçu ilə gücləndirib. Turin təmsilçisi İsveçrənin "Luqano" klubunun hücumçusu Kristofer Lunqoyini transfer edib. 20 yaşlı futbolçu ilə bağlanan müqavilənin müddəti və digər detalları açıqlanmayıb.

"Yuventus" Lunqoyinin transferinə görə "Luqano"ya 200 min avro ödəyib.

* * *

"Yuventus" qış transfer pəncərəsində Almaniyanın "Bavariya" klubunun iki futbolçusunu heyətində görmək istəyir.

Turin təmsilçisi yarımmüdafiəçi Korenten Tolisso və hücumçu Coşua Zirkzeni transfer etmək niyyətindədir.

A seriyası təmsilçisi hər iki oyunçunu qısa müddətdə keçidini birdəfəlik həll etmək istəyindədir. 26 yaşlı Tolisso 2017-ci ildə "Lion"dan "Bavariya"ya keçib.

O, cari mövsümdə 17 oyunda 1 qol vurub. Fransalıdan 7 yaş kiçik olan niderlandlı cari mövsümün 9 matçında 2 dəfə fərqlənib.

* * *

"Milan" Andrea Kontini icarəyə göndərib.

26 yaşlı müdafiəçi karyerasını "Parma"da davam etdirəcək. Bu barədə "Parma"nın rəsmi saytı məlumat yayıb. İtaliyalı oyunçu ilə 2025-ci ilədək müqavilə imzalandığı bildirilib.

Qeyd edək ki, Konti bu mövsüm A seriyasında cəmi 3 matça çıxıb.

* * *

"Milan" "Çelsi"nin futbolçusu Fikayo Tomorinin keçidini rəsmiləşdirib. Bu barədə İtaliya klubunun rəsmi saytı məlumat yayıb. A seriyası təmsilçisi 24 yaşlı müdafiəçi ilə mövsümün sonunadək müqavilə imzalayıb. Yazılı razılaşmanın bəndlərində "Milan"ın mərkəz müdafiəçisini yayda 30 milyon avro qarşılığında birdəfəlik transfer edə biləcəyi də yazılıb.

Qeyd edək ki, Tomori "Çelsi"nin yetirməsidir.





* * *

"Arsenal"dan ayrılan Sokratis Papastatopulosun yeni klubu müəyyənləşib. 32 yaşlı müdafiəçi karyerasını "Latsio"da davam etdirəcək. Roma təmsilçisi yunanıstanlı oyunçu ilə 2022-ci ilin yayına qədər müqavilə imzalamaq üçün razılığa gəlib. Qeyd edək ki, Papastatopulos bir neçə gün öncə 2018-ci ildən bəri çıxış etdiyi "Arsenal"la müqaviləsini ləğv edib.

## Almaniya

"Şalke" "Ayaks"ın futbolçusu Klas-Yan Hunteları transfer edib.

37 yaşlı hücumçu ilə bu mövsümün sonuna kimi müqavilə imzalanıb. Qeyd edək ki, niderlandlı oyunçu 2010-2017-ci illərdə də Almaniya təmsilçisinin şərəfini qoruyub. O, həmin vaxt 175 matça çıxıb və 82 qol vurub.

## Türkiyə

Türkiyənin "Başakşəhər" klubu yarımmüdafiəçisi Kərim Frayla yollarını ayırıb. Bu barədə Superliqa təmsilçisinin rəsmi saytı məlumat yayıb. 27 yaşlı futbolçu ilə müqaviləyə qarşılıqlı razılıq əsasında xitam verildiyi bildirilib. Türkiyə mətbuatı oyunçunun Niderlandın "Emmen" klubuna keçdiyini yazıb.

Qeyd edək ki, Kərim Fray 2013-2017-ci illər aralığında "Beşiktaş"da da çıxış edib.

* * *

İstanbul təmsilçisi "Qalatasaray" "Başakşəhər"in yarımmüdafiəçisi İrfan Canın keçidini həll edib.

26 yaşlı yarımmüdafiəçini uzun müddətdir transfer etməyə çalışan tərəflər ortaq məxrəcə gəlib. Razılığa əsasən, "sarı-qırmızılılar" keçid müqabilində 4,5 milyon avro ödəyəcək. Türkiyə millisinin üzvünün sonrakı satışından da "Başakşəhər" gəlir əldə edəcək. Oyunçu yeni komandası ilə 4,5 illik müqavilə bağlayacaq.

Qeyd edək ki, "Qalatasaray" bu gün İngiltərənin "Brentford" klubunun hücumçusu Halil Dərvişoğlunu heyətinə cəlb edib.

* * *

Fransanın "Monako" klubunun futbolçusu Henri Onyekuru İstanbula gəlib. 24 yaşlı cinah hücumçusu sabiq komandası "Qalatasaray"a qayıdıb. Türkiyə təmsilçisi rəsmi saytı vasitəsilə Nigeriya millisinin üzvü ilə danışığa başlanıldığını açıqlayıb. "Cim-bom" knyazlıq klubu ilə Onyekurunun mövsümün sonuna qədər icarəyə götürülməsini razılaşdırıb. "Sarı-qırmızılılar" onu mövsümün sonunda 6 milyon avro qarşılığında birdəfəlik transfer etməlidir. Onyekuru tibbi müayinədən sonra rəsmi müqaviləyə qol çəkəcək.

* * *

"Fənərbaxça" heyətini yeni futbolçu ilə gücləndirib.

İstanbul təmsilçisi "Kuinz Park Reyncers"dən Brayt Osayi-Samuelinin transferi üçün razılıq əldə edib. 23 yaşlı yarımmüdafiəçi tezliklə İstanbula gəlib tibbi müayinədən keçəcək və 4,5 illik müqaviləyə imza atacaq.

Qeyd edək ki, Osayi-Samuel 2017-ci ildən "Kuinz Park Reyncers"də çıxış edir. O, daha öncə iki il yetirməsi olduğu "Blekpul"da da forma geyinib.

## Fransa

Fransanın "Marsel" klubu "Napoli"nin oyunçusu Arkadiuş Miliki heyətinə cəlb edib. Liqa 1 təmsilçisi polşalı hücumçunu mövsümün sonuna qədər icarəyə götürüb.

"Marsel" 26 yaşlı futbolçunu 8+4 milyon avro qarşılığında transfer etmək hüququna malikdir.

Qeyd edək ki, "Napoli" Miliki 2016-cı ildə "Ayaks"dan 32 milyon avroya transfer edib.

* * *

PSJ "Barselona"nın futbolçusu Emersona müqavilə təklif etməyə hazırlaşır. Paris təmsilçisinin 22 yaşlı müdafiəçiyə görə Kataloniya klubuna 25 milyon avro ödəməyə hazır olduğu bildirilib. Braziliyalı oyunçunun bu ilin yayında PSJ-yə keçəcəyi gözlənilir. Qeyd edək ki, Emerson mövsümün əvvəlindən icarə əsasında "Betis"də çıxış edir. O, La Liqada 16 matça iştirak edərək, 1 qol vurub və eyni sayda qolun ötürməsini verib.







Futbol ulduzları

# Kömür şaxtasından yaşıl meydanlara uzanan ömür yolu



XX əsrin əvvəllərində futbolun vətəni olan İngiltərədə oyunlar yerli azarkeşlərin gözü önündə xüsusi bir mənzərə açdı. Futbol intibah dövrünü yaşayırdı. Söhbət oyunların sürətindən və texniki-taktikasından deyil, oyunçuların artıq vərdiş etdiyimiz standartlara uyğun olmamasından gedir. Məsələn, oyunçular həm yaşlı və həm də həddsiz kök idilər. Onlardan ən məşhur və qeyri-adi göstəriciləri olan biri isə qapıçı Uilyam Fulk idi. İndiki dövrümüzdə belə bir ağır çəkili qapıçının çətin ki, yığma komandada çıxış etmək şansı olsun. O vaxtkı dövrdə isə Fulk belə çəki ilə kifayət qədər uğur qazanmışdı. Futbol karyerasının sonlarında idmanda qazandığı uğurlar onun həyatını dəyişdirdi. O, futbol tarixində ən nəhəng qapıçı kimi məşhurlaşdı. "Olimpiya dünyası" qəzeti bu sayında "nəhəng qapıçı" adlanan Uilyam Fulk haqqında yazını çoxsaylı oxucularına təqdim edir.

### Futbol dünyasında onun bənzəri yox idi

Uilyam Fulk 1874-cü ildə İngiltərənin Douli (indiki Telford) şəhərində dünyaya göz açıb. O, Meri Enn Fulkun qanundan kənar oğlu idi. Uşaq doğulan kimi Meri onu Blekuell şəhərinə, valideynlərinin yanına göndərir. Nənə və babasının himayəsində olan balaca Fulk ailədə sevilmədiyi üçün onlar tərəfindən ağır əməyə cəlb edilir. Buna baxmayaraq, fiziki cəhətdən güclü olan Uilyam ağır işlərin öhtəsindən gələ bilirdi. O, şəhərin əksər kişiləri ilə birlikdə şaxtada işləməyə gedirdi. Boş vaxtlarında isə Fulk Blekuell şəhərinin yerli futbol komandasında oynayırdı.



Fiziki göstəriciləri qeyri-adi olduğu üçün onu qapıçı təyin edirlər.

Gənc şaxtaçının taleyi "Derbi Kaunti" ilə yoldaşlıq matçında dəyişir. 20 yaşlı qeyri-adi görünüşlü qapıçı diqqətdən kənarda qalmır. Onun boyu 193 sm, çəkisi isə təxmini 100 kq idi.

XX əsrin əvvəllərində, xüsusilə bu cür "nəhəng"lərə çox az rast gəlinərdi. Bədən quruluşunun kök olmasına baxmayaraq, Fulk çox cəld qapıçı idi. O, bütün zərbələri, hətta aşağıdan vurulan zərbələri belə dəf etməyi bacarırdı. Qapıçı cərimə topunu da çox məharətlə tuturdu. Onun qoruduğu mövqeyə girmək hücumçu üçün təhlükəli idi. Hətta bir dəfə Uilyamla üzüzə qalan "Derbi" hücumçusu iki dişini itirmişdi.

Yoldaşlıq matçı bitdikdən sonra "Derbi" rəhbərliyi dərhal Fulka müqavilə təklif etmişdi. Müqavilənin dəyəri adi işçinin qazancından bir neçə dəfə yüksək idi. Amma qapıçının qardaşı ona razılıq qərarı verməmdən bir daha düşünməyi və özünü ucuz qiymətə satmamağı tövsiyə etmişdi. Qapıçının qohumu haqlı idi. Uilyamın sayəsində futbol agentliyi açaraq, uğurlu karyera qurmaq olardı. Bir neçə gündən sonra Fulk öz qərarını verdi. Təklifi gücləndirmək üçün oyunçunun yanına "Şeffild Yunayted"dən nümayəndə gəlmişdi. Razılıq əldə edildi. Beləliklə, "dərinliklərin sadə şaxtaçısı" elit ingilis diviziyasının peşəkar futbolçusuna çevrildi. Onun gəliri birbaşa siyahıdankənar, 4 dəfə yüksəldi.

Fulk tez bir zamanda "Şeffild"in əsas qapıçısına çevrildi. O, bir mövsumdə 29 matçda 30 rəqib zərbəsini dəf edə bildi. O matçlarda möhtəşəm çıxış edirdi.

### Milli komandada ilk və son görüş

Həmin dövrün yazarlarından biri olan Ceyms Eşkroft qapıçılar haqqında yazırdı: "Qapıçı artıq çəkili olmamalıdır. Bu mövzuda əfsanəvi Fulk mənim fikrimlə razılaşmaya bilər. Çünki onun öz qanunları var. Diqqət çəkən kompleksləri olan min kişi götürsək, onların içində Uliyam kimi reaksiyası sürətli və cəld hərəkətli birini görə bilmərik."

1896-97-ci illər mövsümündə "Şeffild Yunayted" 2-ci yeri tutdu. Fulk mövsüm ərzində qoruduğu çərçivədən cəmi 29 top buraxdı. Bu uzun illərdən sonra divizionun tarixində rekord sayılırdı. Bununla da nəhəng qapıçı çempionatın ulduzuna çevrildi. Onun azarkeşləri xeyli artmağa başladı. Nəticədə, Uilyama İngiltərə yığma komandasından dəvət gəldi. Fulk 1897-ci ildə "üç şir"in heyətində Uels yığmasına qarşı çıxış etdi. Həmin görüşdə ingilislər 4:0 hesabı ilə qalib gəldilər. Bu matçdan sonra qapıçı bir daha milli komandada görünmədi.

XX əsrin astanasında cərimə meydanındakı mübarizə bugünki kimi deyildi. Hakimlər təpiklərə və itələməyə fikir vermirdi. Qapıçını topla bərabər qapıya itələyirdilər. Belə tryuklar Fulka qarşı edilə bilməzdi. O, bədəni və əli ilə öz mövqeyini səliqəyə sala bilirdi. Uilyam bacarığından istifadə edərək, əli ilə topu oyun meydançasına qədər ata bilirdi. Hətta nəhəng qapıçının uzaq məsafədən ayaqla vurduğu zərbə çoxları üçün əlçatmaz idi.

### "Çelsi" futbola yenilik gətirdi

"Şeffild" öz qapıçısını çox sevirdi. Onun mükafat və maaşını qaldıraraq, ona olan etimadı lazımi qədər qiymətləndirirdi. Demək olar ki, Fulkun qazancı onun parametrlərinə görə yüksəlirdi. Bir neçə il ərzində o, 60 kiloqram artaraq, futbolçudan çox, sumo döyüşçüsünə oxşayırdı. Təəccüblüsü ondadır ki, çəkisinin artması onun oyun göstəricilərinə heç bir təsir göstərmirdi. Uilyam "Şeffild"lə birlikdə ölkə çempionu oldu. O, iki dəfə İngiltərə Kubokuna yiyələndi. Lakin 1905-ci ildə qapıçının "Şeffild Yunayted"lə yolları ayrıldı. Səbəb Fulkun artıq həmin maaşla qane olmaması idi. Həmin vaxt yeni yaranmış və mübarizəyə ikinci divizyondan qoşulan "Çelsi" Fulka təklif göndərdi. "Təqaüdçülər" ("Çelsi" yaranandan 1952-ci ilə qədər komandanın ləqəbi belə idi - A.Ə) qapıçının tələbini ödəyə biləcək maaşı təklif etdi.

Qapıçının paytaxt klubunda çıxış etməsi böyük səs-küyə səbəb olmuşdu. Komanda yarandığı illərdən etibarən futbolda yeniliklər tətbiq etməyə başladı. Belə ki, ilk dəfə "Çelsi" qapının arxasına, meydançadan çıxan topları geri qaytarmaq üçün uşaqlar təyin etdi. Bu oyunun tempini yüksəltmək və ya oyunçulara psixoloji təsir göstərmək üçün mühüm bir addım idi. Onların fikrincəi qeyri-adi ölçülü qapıçı ampluası ilə rəqib komandasının böyük olmayan oyunçularını bir-birinə vurmalıdır. Plan qısa müddət ərzində həyata keçmişdi. Bir ildən sonra Fulk "göylərin" heyətini tərk etsə də, bu taktika komanda da qaldı. Sonralar başqa ölkələrin, başqa komandaları da bu təcrübəni təkrarlamağa başladılar.

Fulk əvvəlki kimi təsir bağışlamırdı. 170 kiloqam çəkisi olan 33 yaşlı qapıçı artıq qapıda çətin hərəkət edirdi. Fulk məntiqli qərar verdi. "Çelsi"dən sonra "Bredford Siti" komandasında cəmi bir mövsüm çıxış etdikdən sonra, futbolçu karyerasını yekunlaşdırdı.

### "Məni nahara vaxtında çağırmağı unutmayın"

İdman jurnalistikası XIX əsrlə XX əsrin kəsişməsində çiçəklənməyə başladı. Artıq reportajlar, fotoçəkilişlər, müsahiblər idmana da gəlib çatmışdı. Fulkun demək olar ki, qapıçı kimi çıxış etdiyi dövrlər lentin yaddaşında qalıb. Onunla bağlı maraqlı hadisələr indiyə qədər arxivlərdədir. Belə ki, 1904-cü ildə "Şeffild" derbisi - "Yunayted" və "Uensdey" matçında Uilyam qapı dirəyindən asılmaq istəyərkən, taxta dirək ağırçəkili qapıçıya dözməyib sınır. Matç dayanır, stadionun işçiləri uzun müddətə qapını təmir edə bilirlər. Fulk bu hadisədən sonra bu bardə araşdırma aparır. O, başa düşür ki, bu rəqibin işidir. Lakin matç dayanır.

Fulkun qeyri-adi xarici görünüşü matçın digər iştirakçılarının həyatı üçün əməlli başlı təhlükə idi. Bir dəfə qapıçı "Everton"un oyunçusu Lori Bellanın üzərinə düşmüşdü. Həmin vaxt Lori az qala həyatla vidalaşacaqdı.

Fulk həmin hadisəni belə xatırlayırdı: "Havada topla mübarizə apararkən biz toqquşduq. Belli yerə yıxıldı, mən də özümü ayaq üstə saxlaya bilməyib, diziüstü onun kürəyinə düşdüm. Onu yerdə fırladıb üzünə baxdım. Çox qorxmuşdum. İnsanı belə sifətlə yalnız tabuta qoyarlar. Bellanı körpə uşaq kimi qollarım üzərində apararkən, o, dirildi. Çox sevinirdim"

Fulkla bağlı daha bir maraqlı məqam yeməklə bağlı idi. Hadisə "Çelsi"nin heyətində səfər matçlarından birində mehmanxana restoranında baş vermişdi. Özündənrazı Uilyam komanda üçün ayrılmış bütün yeməkləri təkbaşına yemişdi. Fulkun bu acgözlüyünü onun üzünə deməyə heç kimin cəsarəti çatmamışdı. Yalnız kənardan ona gülmüşdülər. Ürəyi təmiz gombul onlara demişdi: "Mənimçün fərqi yoxdur, siz məni necə adlandırırsız. Amma məni nahara vaxtında çağırmağı unutmayın".

Əks halda vacib matç vaxtı Fulkun gərginliyi həddini aşa bilərdi. 1902-ci ildə İngiltərə kubokunun finalında "Sauthempton" futbolçuları "Şeffild" komandasının qapısına, qapıçının fikrincə oyundan kənar vəziyyətdə qol vurdu. Uilyam oyun bitdikdən sonra baş hakim Tom Kirkomun "ovuna çıxmışdı". Tom polsilən və süpürgə saxlanılan şkafda gizlənmişdi. Özündən çıxmış qapıçı isə onu tapmaq üçün tribunaya qədər çıxmışdı. Hakimi İngiltərə Futbol Assosiasiyasının "çinovnikləri" xilas etmişdi. Qapıçı kimi böyük bədəni və fiziki gücü olan bir neçə kişi Fulku sakitləşdirə bilmişdi.

Futbol karyerası dövründə Fulk özünə normal şərait yaratmışdı. Təqaüdə çıxdıqdan sonra özünün şəxsi "pub bar"ını açmışdı. Bir neçə ildən sonra polisin müdaxiləsi nəticəsində bar bağlanır. Çünki bar artıq qanunsuz bukmeker klubuna çevrilmişdi. Artıq Uilyamın səhhətində ciddi problem yaranmışdı. O, fiziki əməklə pul qazana bilmirdi. Onun bu səviyyəyə enməsinin əsas səbəbi isə spirtli içki idi.

Şahidlərin dediyinə görə, Fulk çimərlikdə sərgərdan kimi gəzir, istirahət edənlərə cərimə zərbəsi vurmağı təklif edirdi. O, bu yolla az miqdarda qazanc əldə edirdi. Amma artıq son idi.

"Nəhəng" Uliyam Fulk 1916-cı ildə 42 yaşında qara ciyər serrozundan vəfat edir.

*Hazırladı:*
*Anar Əhmədov*

# Çempionlar Liqası: yeni mövsümün təqvimi açıqlandı

Futbol üzrə UEFA Çempionlar Liqasında 2021-22-ci illər mövsümünün təqvimini açıqlanıb. Qitənin bir nömrəli klub turnirində yeni mövsümə iyunun 22-də ilkin mərhələnin yarımfinal oyunları ilə start veriləcək. 3 gün sonra bu raundun final matçı baş tutacaq.

Birinci təsnifat mərhələsinin görüşləri 6-7 və 13-14 iyulda, ikinci raundun matçları 20-21 və 27-28 iyulda oynanılacaq. Üçüncü təsnifat mərhələsində ilk oyunlar 3-4 avqustda, cavab qarşılaşmaları 10 avqustda keçiriləcək.




Pley-off mərhələsinin görüşləri isə 17-18 və 24-25 avqustda olacaq.

UEFA Çempionlar Liqasında qrup mərhələsi 14-15 sentyabrda birinci turun oyunları ilə başlayacaq.

**UEFA Çempionlar Liqası 2021/22 mövsümü**

**İlkin mərhələ 22 iyun: Yarımfinal**

**25 iyun: Final**

6-7 və 13-14 iyul: Birinci təsnifat mərhələsi

20-21 və 27-28 iyul: İkinci təsnifat mərhələsi

3-4 və 10 avqust: Üçüncü təsnifat mərhələsi

17-18 və 24-25 avqust: Pley-off mərhələsi

**Qrup mərhələsi**

14-15 sentyabr: Birinci tur
28-29 sentyabr: İkinci tur
19-20 oktyabr: Üçüncü tur
2-3 noyabr: Dördüncü tur
23-24 noyabr: Beşinci tur
7-8 dekabr: Altıncı tur

**Pley-off**

2022-ci il

15-16, 22-23 fevral və 8-9, 15-16 mart: 1/8 final mərhələsi

5-6 və 12-13 aprel: 1/4 final mərhələsi

26-27 aprel və 3-4 may: Yarımfinal mərhələsi

**28 may: Final**

Qeyd edək ki, UEFA Çempionlar Liqasında 2021/22 mövsümünün finalı Rusiyanın Sankt-Peterburq şəhərindəki eyniadlı stadionda keçiriləcək.



**Dünya_idmanı**

# Hakimiyyət tennisçiyə orden verilməyinə qarşıdır

Bir çox avstraliyalı siyasətçilər məşhur tennisçi Marqaret Kortun ölkənin ali mükafatı olan Avstraliya ordeni ilə mükafatlandırılmasına qarşı çıxıblar.

M.Kort 1960-cı və 1970-ci illərdə "Böyük dəbilqə" turnirində 24 dəfə mükafat qazanıb. Bu, qadın tennis tarixində ən yaxşı nəticə hesab olunur.

Həmçinin 78 yaşlı veteran oyunçu dəfələrdə eynicinslilərin nigahına transgenderlərə qarşı çıxıb. Bu isə Avstraliya dövlətinin siyasətinə ziddir. Avstraliyanın Viktoriya ştatının baş naziri Deniel Endrüs M.Kortun mükafatlandırılmasına etirazını bildirib. Baş nazir tennisçinin fikirlərini "biabırçı, zərərli, çirkin və ölkə əhalisinin əksəriyyəti tərəfindən bölünməyən" adlandırıb.



Qeyd edək ki, Avstraliya ordeni "görkəmli nailiyyətlərə, ölkəyə və bütövlükdə insanlığa xidmətlərə" görə verilir.

**olimpnews.az - sizin saytınız**




# NBA-nın ən dəyərli klubları

Milli Basketbol Assosiasiyasının (NBA) ən dəyərli klublarının siyahısı açıqlanıb. Son illər pley-offa vəsiqə qazanmaqda problem yaşamasına baxmayaraq, "Nyu-York" 5,42 milyard dollarla liqanın ən dəyərli klubu seçilib. Onu "Qolden Steyt Uorriors", "Los Anceles Leykers", "Bruklin Nets" və "Boston Seltiks" klubları izləyir.

Liqanın ən aşağı dəyəri olan klubu isə 1,35 milyard dollar qiyməti olan "Nyu-Orlean Pelians"dır.

Ümumilikdə isə orta hesabla NBA klubları 2,4 milyard dollar dəyərə malikdir. 2019-cu illə müqayisədə bu dəyər 2 faiz aşağı düşüb. Bu isə pandemiya ilə əlaqədardır.



**Üfüqi**

2. Azərbaycan....Federasiyası. 5. Dünyada kinomatoqrafların ən çox çox müraciət etdiyi idman növü. 6. II Avropa Oyunlarına ev sahibliyi etmiş şəhər. 7. Hokkey və futbolda ən çox qol vuran hücumçu belə adlanır. 8. Amerika və Kanada futbolunda işlədilən termin, "topun itirilməsi". 10. "Lill"də oynayan türkiyəli futbolçu...Yazıçı. 11. Hərbi rütbə, komandada rəhbər. 15. Mərhələ. 16. Tennis meydançası. 17. Dağ xizəyində sürüşmə üslubu. 19. Stolüstü tennisin əvvəlki adı.

**Şaquli**

1. Finlandiya futbolunun əfsanəsi. 3. V İslam Həmrəyliyi Oyunlarına ev sahibliyi edəcək şəhər. 4. 360 dərəcəlik akrobatik tullanış, Uruqvayda şəhər. 9. İtaliya çempionatında yüksək nəticə, çempionluq. 12. "Bayer...". 13. Küçə basketbolu. 14. Skeytbordinq və snoubord yarışlarında icra olunan hərəkət. 15. İtaliyanın şimalında yerləşən mədəniyyət şəhəri. 18. Əlcəzair futbol liqasında çıxış edən klub. 20. Kanadada şəhər, çay və hokkey komandası.

# Dünya çempionatı tarixinə düşən nəhəng həndbolçu

Misirdə keçirilən kişilər arasında həndbol üzrə dünya çempionatında maraqlı hadisə yaşanıb. Tarixdə ilk dəfə mundiala vəsiqə qazanan Konqo Demokratik Respublikasının heyətində meydana 130 kq çəkisi olan idmançı çıxıb. Tyerri Qotye Mbumbi dünya çempionatının ən ağır çəkili həndbolçusu kimi tarixə düşüb. 26 yaşlı oyunçu D qrupunda Argentinaya 22:28, Danimarkaya isə 19:39 hesabı ilə uduzduqları qarşılaşmada 4 dəfə fərqlənib. O, Bəhreynə 27:34 hesabı ilə uduzduqları görüşdə isə 5 dəfə topu rəqib qapısından keçirməyə müvəffəq olub.



Mbumbinin görünüşü onun nə qədər çəkisi olması ilə bağlı suallar yaradıb. Misirdəki yarışın rəsmi saytı həndbolçunu 89 kq ağırlığında və 1.89 metr hündürlükdə göstərib.

# "Spartak"ın keçmiş oyunçusu evdə ölü halda tapıldı

Rusiyanın "Spartak" və MOİK komandalarının keçmiş hokkeyçisi Stanislav Aqafonov vəfat edib. O, 34 yaşında dünyasını dəyişib. Aqafonovun meyiti Leninqrad vilayətinin Vertemyagi kəndindəki evdə aşkarlanıb.

Tanışı onunla əlaqə yarada bilmədiyi üçün bir neçə gün əvvəl polisə müraciət edib. Bəzi məlumatlara görə, hokkeyçi narkotikdən istifadə edib. Meyitin yaxınlığında şprislər, naməlum ağ maddə və qaşıq tapılıb. Onun yüksək dozaya görə öldüyü ehtimal edilir.

Qeyd edək ki, Stanislav Aqafonov 2012-ci ildən məşqçi kimi fəaliyyət göstərib.

Olimpiya dünyası

Baş redaktor: M.Q.Fərzəliyev

Qəzet Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Hüquqi Şəxslərin Dövlət Qeydiyyatı üzrə Bakı Bölgə Şöbəsində qeydiyyatdan keçib. Qeydiyyat N R-168
AZƏRBAYCAN BEYNƏLXALQ BANKI
VÖEN 9900001881
H/H AZ79IBAZ38090019449333849204
M/H AZ03NABZ01350100000000002944
KOD 805722
VÖEN 1500306421

Təqdim olunmuş materiallar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər. Redaksiya reklam materiallarının məzmununa görə məsuliyyət daşımır.

Qiyməti 40 qəpikdir. Qəzet "Olimpiya dünyası"nın kompüter mərkəzində yığılır, səhifələnir və "CBS" mətbəəsində (Şərifzadə küçəsi, 3. tel: 447-75-05(04)) çərşənbə axşamı 4100 nüsxə ilə çap edilir.

DİQQƏT! Qəzetimizin materiallarından istifadə edərkən "Olimpiya dünyası"na istinad etmək zəruridir.

E-mail: olimpiya_dunyasi@mail.ru
Ünvan: Bakı şəhəri, 2-ci sülh döngəsi, 2a.
Tel.: 564-90-49; 564-74-19